# Londonda "Qarabağ məktəbi"

**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Londonda yaşayan soydaşımız Fəridə Pənahova ilə onlayn müsahib olduq. Söhbətimiz milli diasporumuz mövzusunda olsa da, dünyada baş verən proseslərə də diqqət yetirdik. Fəridə xanım bildirdi ki, xalqlar arasında sürətli inteqrasiya meyillərinin güclənməsi diaspor təşkilatlarının fəaliyyət istiqamətlərində dəyişiklikləri zərurətə çevirməkdədir:**



–Müxtəlif ölkələrin təcrübəsinə əsaslanaraq deyə bilərik ki, diaspor ilə sıx bağlar qurmağa nail olan ölkələr beynəlxalq arenada gücə çevrilə bilir. Buna ən əyani nümunə dost İsraildir. Hazırda Azərbaycan da məhz bu hədəfə doğru irəliləyir. Biz də diasporla əlaqələrin möhkəmləndirilməsinə və xaricdə yaşayan soydaşlarımızın potensialından maksimum istifadə edilməsinə nail olmalıyıq. Onlarla etibarlı körpülərin qurulmasında mühüm vasitələrdən biri də müxtəlif ölkələrdə azərbaycandilli məktəblərin təsis edilməsidir. Prezident İlham Əliyev də diaspor fəallarını belə məktəblər yaradılmasına səsləyib.

**–Yəqin, Prezidentin bu il Dünya Azərbaycanlılarının Şuşada keçirilmiş Zəfər Qurultayında səsləndirdiyi çağırışı nəzərdə tutursunuz.**

–Bəli, doğru vurğuladınız. Dövlətimizin başçısının bu məsələdə kifayət qədər ardıcıllığı və prinsipiallığı hər kəsə aydındır. Mən bu məsələdən Londonda açdığımız Qarabağ məktəbi haqda danışmaqla, təəssüratlarımı bölüşməklə söz açmaq istəyirəm. Əslində, xarici ölkələrdə təsis olunmuş Qarabağ məktəblərinin ideya müəllifi və təşəbbüskarı Birinci vitse-prezident Mehriban xanım Əliyevadır.



Qarabağ məktəbini 2021-ci il sentyabrın 27-də rəhbərlik etdiyim Britaniya Azərbaycan Cəmiyyəti (BAC) təsis etdi. Bu tarixin 27 Sentyabr – Anım Günü ilə üst-üstə düşməsi heç də təsadüfi deyildi. Bu açılış icmamızın işğal olunmuş torpaqlarımızın azad olunmasında şəhid olmuş oğul və qızlarımızın xatirəsinə dərin ehtiramının ifadəsi idi.

Avropanın müxtəlif ölkələrində eyni adlı məktəblər isə artıq bir neçə ildir ki, fəaliyyət göstərir. Bizim məktəbin əsas məqsədi Birləşmiş Krallıqda dünyaya gələn, boya-başa çatan övladlarımıza Azərbaycan dilini, tarixini, mədəniyyətini, milli dəyərlərini, adət-ənənələrini, kimliyimizi, ulu öndər Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq məfkurəsini təbliğ və tədris etməkdir.

Məktəbimiz Azərbaycan dilinin, mədəniyyətinin incəliklərini nəinki soydaşlarımıza, onların övladlarına, eyni zamanda, xarici ölkə vətəndaşlarına da öyrədir. Şagirdlərimiz Qarabağ məktəbi haqda yerli məktəblərdə sinif yoldaşlarına danışır, iştirak etdikləri Azərbaycan tədbirlərinə onları da dəvət edirlər. Uşaqlar milli paltar geyir, beynəlxalq günlərə həsr olunmuş toplantılarda Azərbaycan rəqsləri ifa edir, qonaqlara mətbəximizdən nümunələr təklif edirlər.

**–Milli mədəniyyətimizi övladlarımızın köməyilə təbliğ etmək çox önəmlidir. Başqa hansı hədəfləriniz var?**

–Qarabağ məktəbi Azərbaycanımızı uşaqlarımızın köməyi ilə modern tələblərə cavab verən fərqli platformada təbliğ edir. Qürurla deyə bilərəm ki, Qarabağ müharibəsindəki qələbədən sonra artıq Birləşmiş Krallıqda akademik diaspor formalaşması istiqamətində Qarabağ məktəbi də öz töhfələrini verməkdədir.

Məktəbin məqsədi həm də miqrasiya etmiş soydaşlarımızın adaptasiya olunmasına, bu ölkədə doğulmuş uşaqların assimilyasiya probleminin həllinə dəstək göstərməkdir. Bundan əlavə, uşaqların inkişafını təmin etmək, eyni zamanda, gənc soydaşlarımız arasında istedadlı uşaqları aşkarlayıb onların inkişafına yardımçı olmaq istəyirik. Bütün bunlar azərbaycanlı ailələrin bir-biri ilə ünsiyyəti baxımından da faydalıdır.

Məktəbimizin musiqi müəllimləri Rasim və Səadət Fərziyevlərin təşviqindən ilhamlanan şagirdlərimizin bir neçəsi gələcəkdə musiqi, teatr və kino sahəsində çalışmaq istədiklərini bildiriblər. Əvvəllər Azərbaycan dilində bir kəlmə danışa bilməyən uşaqlar İlahə Qasımzadənin səyləri nəticəsində hazırda sərbəst şəkildə yazıb-oxuyurlar. Kamran Mahmudov isə uşaqlara Azərbaycanın tarixini öyrətməklə yanaşı, Qarabağın azadlığı uğrunda şəhid olmuş qəhrəmanlarımız haqda davamlı məlumatlar da paylaşır. İncəsənət və rəssamlıq üzrə müəllimimiz Səmra Pənahova tələbələrə Azərbaycan arxitektura nümunələrini, milli rəmzləri, naxışları tədris edir.

Bu yaxınlarda şagirdlərimiz Zəfər bayramının 2-ci ildönümünə həsr olunmuş klip təqdim etdilər. Film Azərbaycan dili və mədəniyyətinin təbliği ilə yanaşı, xalqımızın zəngin tarixi-mədəni irsini, tolerant və sülhpərvər olduğunu uşaqların ifasında bir daha bəyan edir.

**–Belə məktəblər diaspor quruculuğuna necə təsir göstərir?**

–Bu məktəblərin varlığı gələcəkdə həmin ölkələrdə Azərbaycan yönümlü diasporun fəallığını daha da artıracaq. Bizim indiki tələbələrimiz məhz məktəbdə aldıqları təhsilin köməyi ilə Azərbaycanı daha yüksək səviyyədə təbliğ edə biləcəklər. Onlar Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə daha təsirli şəkildə çatdıracaqlar.

Məktəbimiz Diasporla İş Üzrə Dövlət Komitəsi tərəfindən maliyyələşir və Bakıda fəaliyyət göstərən Landau məktəbi ilə sıx əməkdaşlıq edir.

Şagirdlərimiz ulu öndər Heydər Əliyevin 100 illiyinə maraqlı konsert proqramı hazırlayırlar. Konsertə yerli xalqın nümayəndələri, uşaqların təhsil aldığı məktəblərin müəllim və şagirdləri, İngiltərə parlament nümayəndələri və digər tanınmış şəxslər də dəvət olunacaq.

Məktəbimiz əsasən onlayn fəaliyyət göstərməsinə baxmayaraq, dərslərimizə müxtəlif ölkələrdən uşaqlar da qatılır. Hazırda 60-dan yuxarı şagirdimiz var. Onlar məşğələlərə həm krallığın müxtəlif bölgələrindən, həm də Avropa ölkələrindən qoşulurlar.

Fürsətdən istifadə edib məktəbimizin tələbə, valideyn, müəllim kollektivi və Azərbaycanın dostları adından bizi çağırışları ilə dəstəkləyən Prezident İlham Əliyevə və layihənin ideya müəllifi Mehriban xanım Əliyevaya, fəaliyyətimizi həmişə diqqətdə saxlayan Diaspora Komitəsinə minnətdarlığımızı bildiririk. Vətəndən kənarda yaşayan bütün soydaşlarımızı isə milli həmrəylik bayramı və Yeni il münasibətilə təbrik edirik.

***Müsahibəni hazırladı:***
***T.RÜSTƏMLİ,***
***"Xalq qəzeti"***